

# Hər qələbə Qarabağın vüqarıdı!..

(lirik poema)

Zaman - 2020...
Payız, qızılı payız...
Kövrəklikdən sıyrılıb
avtomat qundağına
necə qısılıb payız?!.
Bu payız - ruhumuzun
gözəl zəfər fəsili,
bir müzəffər fəsili
yetirdi zühur kimi,
gözümüzə nur kimi.
Bəndləri yıxdı gəldi,
Yadların istəyini
sıxdıqca sıxdı gəldi.
Gəldi məmləkət boyu
Aşıb-daşan Kür kimi.
Gəldi bir ilğım kimi,
Gəldi qığılcım kimi.
Gəldi qüdrət əsgəri
işğalın baş-gözünə
dördəlli döyə-döyə,
Gəldi, qılınc sıyırdı
ermənilyin doğduğu
bu bic müharibəyə!..

Döyüş gedir...
Döyüş-döyüş sökülür dan,
"Cəngi" enir, "Misri" enir
göylərin göy yaxasından.
Dağ vüqardı əsgərlərə,
Əsgər dağın vüqarıdı.
Qətiyyəti, cəsarəti
bu torpağın vüqarıdı.

Dizə çöküb şər, qələbə,
Daş çeynədir tər qələbə...
Əsgər balam, hər qələbə
Qarabağın vüqarıdı!..

Döyüş-döyüş dağ döyüşür! -
Dağdan gələn səsdi zəfər.
Hər qarış torpaq döyüşür! -
Haqdan gələn səsdi zəfər...

Nə olsun ki, düşmən yatıb
nakişilik marığına.
Döyüləndə dönə bilir
dünyanın ən fağırına.

Qoymadı ki, yaş süzülə
Göylərin göy yanağına,
İstəmədi göylər gəlsin
yadların ağ qınağına.

Göy üzündən ulduz axdı,
Dərd dinirsə, dağ oyaqdı...
Dar macalda mərmi yağdı
Tarixin tərs sınağına.

İncələn söz, üzülən söz,
Söz sapına düzülən söz,
Birər-birər süzülən söz
qayıdır öz dodağına.

Hər dağı
səngərə döndəribdi
Vətən müharibəsi.
"Döyüş-döyüş qələbə!" -
bu səs, qayibanə səs
şəhid ruhunun səsi.

Vətən döyüşlərdədi,
aranıyla, dağıyla.
Günlərdi dan sökülür
Qələbə sorağıyla.

Döyüşlər yaşadacaq
döyüşən Qarabağı.
Əsgər döyüşlərdədi,
əsgər - döyüş bayrağı!

Yer də, göy də bilir ki,
Günlərə tən yaşadır
hər saatı Qələbə.
Sökülən dan yerinin
salavatı - Qələbə.

Cəbrayılda, Suqovuşanda,
Göyə dayaq
neçə bayraq görənlər
deyir: köz-köz qorunur
ocaq müqəddəsliyi.
Vətən, əsgər bilir ki,
Gəzdirir qolu üstə
hər dağ müqəddəsliyi.
Axirətə aparır
müqəddəslik bayrağı,
bayraq müqəddəsliyi!

İllər sıxılcım çəkdi,
Dərd cücərdən dən əkdi...
Təzə ömür deməkdi
Soraq müqəddəsliyi.

Füzulili ananın
dolan gözü - Qələbə.
Əsgərlərə ad olan
şirin sözü - Qələbə.

Kövrələn duyğulara
tər iltiması oldu.
Bu sorağı alınca,
Ruhu namaz qılınca
Əsgərlərin qüdrəti,
sevgisi, qətiyyəti,
dövlətə sədaqəti
yapışdı əllərindən.
Əsdikcə əsən yellər,
Səbrini kəsən yellər

Açılan sabahımın
gözüsən, əsgər balam.
Yanacaq hər ocağın
közüsən, əsgər balam.

İntizarı bitirdin,
Dərdi-qəmi itirdin,
Ruhumuza yetirdin
bizi sən, əsgər balam.

Hər şirinə tən - şirin,
Torpaq - şirin, dən - şirin...
Məmləkətin ən şirin
sözüsən, əsgər balam...

"İllərdi boylanırdı
Gələn səsə qələbə.
Yetirəydi kaş məni
son nəfəsə qələbə" -
deyənlər, gözün aydın.
Dan üzündən bu yana
Həsrətin baş-gözünə
döyənlər, gözün aydın.

Öymərik hər döyüşü,
Hər təzə-tər döyüşü...
Bu döyüş - ər döyüşü,
Ay Vətən, gözün aydın!

Bu gələn səs nə səsdi,
Səs Şuşaya tələsdi...
Ərgünəşdən yel əsdi,
Ay Vətən, gözün aydın!

Açılan bağlar üçün,
Dağlanan dağlar üçün,
Bu gələn çağlar üçün,
Ay Vətən, gözün aydın!

"Əlimizdən yapışan
səhərin xeyir olsun!
Bu xeyirli sabahın -
gövhərin xeyir olsun,
Hamıya sirdaş əsgər,
Oğluma qardaş əsgər,
zəfərin xeyir olsun!" -
deyənlər, gözün aydın!

"Döyüşlərlə əsgərin
əkdiyi zəfər dəni
yan-yanaşı göyərdi.
Dünyamı heyrət üzsün,
Dərdə qılınc sıyıran
ovxarlı qeyrət üzsün,
İşğalın qaraltdığı
qara daşı göyərdi" -
deyənlər, gözün aydın!
Qısqırdılmış həsrəti
əyənlər, gözün aydın!

Kəlmələr
Füzulili ananın
səhər duası oldu.

Bir şükranlıq, təvəkkül
gətirdi ellərindən.
Bu soraq
yol oldu Füzuliyə.
Dərdini, qəhərini
ocaqda çatan ana,
İllərin murazına
yetişən, çatan ana,
Var bədəni çürümüş
nisgili atan ana
yol aldı Füzuliyə.

Füzulisiz ömürə
ömür deməzdi, getdi,
İşğalla gələn dərdi,
Quru yuyub, yaş sərdi -
həsrəti əzdi, getdi.

Ana, murazlı ana
dedi, uğur üstəyəm
Gedirəm ömrüm üçün,
Gedirəm yaşım üçün,
Oğlumun qəbirinə
qoşa kölgə salası
qərib baş daşım üçün...
Əsgər balam qoymadı
Dərd üzə ürəyimi.
Öz yurduma gedirəm
Şəhid anası kimi...

Ana yol aldı, getdi,
Murazı uğuruna
yumşaq yol oldu, getdi.
Yollar yordu... Gördü ki,
Yollar düşməyib düyün...
17 oktyabr -
Füzulinin yenidən
doğuluş günü oldu
gözü aydınlar üçün!

"Bu da mənim ruhumun
Qibləsi Füzulimiz.
Ömürümün-günümün
qübbəsi Füzulimiz.

Kəsdi aranı neçə
uçurum, Füzulimiz.
Daş çığnadı, daş yedi
uğurum, Füzulimiz.

Dərddən dağlara çıxdı
Məhəmməd Füzulimiz.
Dualar edəmmədi
kəramət, Füzulimiz.

Arxa oldu köz-közə
Aran dağa, dağ düzə...
Tanrılıq etdi bizə
sədaqət, Füzulimiz.

Hönkürüb ağlayırdı,
Qaralar bağlayırdı,
Dərdi qundaqlayırdı
şeiriyyət, Füzulimiz.
İllərlə hər kəs üçün,
Od üçün, ataş üçün,
Dədə Ərgünəş üçün
məhəbbət, Füzulimiz!..

Dinə, ay ellər, dinə,
Anaların adından
üyüşən illər dinə,
dərdli könüllər dinə,
bəz düşən dillər dinə,
Dərdi çığnayıb keçən
coşdanan sellər dinə,
Deyə,
təк tağlı öyüm
Yığvalı bağlı öyüm,
Qundağı qəhər olan,
Gümanı zəhər olan
dərdə çataqlı öyüm,
Gəlmişəm!
Dikəl torpağın altdan,
Qınaq ölüm kimidi,
Dikəl qınağın altdan.

Əli ətəyindən
uzun gəlmişəm,
Bir ayrı sevinclə gəlirdim...
Mən də
məhzun yaşamışam...
Məhzun gəlmişəm...

Gedəndə o yaşımda,
Gələndə bu yaşımda...
Ay ruhumun şəhəri,
Verdim yellər almadı,
Dəli sellər almadı,
Üzümdən çox izimə
baxan ellər almadı
Ömrümə pərsəng olan,
Cücərib min rəng olan
bu dilbilməz qəhəri,
Ay ruhumun şəhəri...

Gəlmişəm...
Bu gəlişim
Xeyli gec oldu, gəldim,
Dözümümün, səbrimin
suyu soğuldu, gəldim.
Gedəndə o yaşımda,
Gələndə bu yaşımda...
Mənə birtəhər baxır
Torpağım da, daşım da...

Gəlmişəm, ocağımı
gözümnən daraqlayam,
odumla daraqlayam,
közümlə daraqlayam.
Sözdən ayrı nəyim var? -
sözümlə daraqlayam...

Nələr gördüm?
Nə gördüm? -
Gözümün yaşı yandı.
İki əlim, bir dizim;
bağrımın başı yandı.

Didik-didik həyətim,
Ot göyərdib həyətim,
Tənhalığı, təkliyi
kürmələyib həyətim.
Bilib ki, bu gündəsən,
Kür mələyib, həyətim!..
Kim gəlib, kimlər keçib,
Basılıdı çəpəri,
Bir yabalıq tikandan
asılıdı çəpəri.
Gün niyə qurutmayıb
bu boyda yaş xırmanı?
Əlləri daş altında,
doqqazı daş xırmanı?!

Bura yol almışam ki,
Ruhumu dara çəkən
qaçqınlıq taleyimi
Qaçqın şəhərciyindən
öz yurduma köçürüm,
Öyümüzə çatınca
ilk gördüyüm əsgəri
şəhid oğluma əvəz
köynəyimdən keçirim...

...Həyət mənim, öyüm yox,
Yerim budu, göyüm yox,
Torpağım bəsdi mənə!
Torpağım bəsdi mənə!

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**